

*Xalid MAHMUD*

## Atam deyərdi

Dəyişib dünyanın rəngi,
bir zaman,
hamı bir-birinə adam deyərdi.
Adamlar itirib adamlığını,
özüm öz içimdə yadam, -deyərdi.

Haqqı  misra-misra taxdım dilimə,
sözü bayraq kimi aldım əlimə,
Vətən vətən olsa, səni olümə,
göndərib, sonra da şadam, -deyərdi.

Söz tutmur, quruyub haqqın dodağı,
zülmün köynəyindən keçib sınağı,
Bir qurtum ümid ver ölüm qabağı,
rahatca uyuyub yatam, -deyərdi.

Məni doğru yola çəkib əllərim,
harda ölüm varsa, ordadır yerim.
Həqiqət üstündə soyulsun dərim,
bircə bu arzuma çatam, -deyərdi.

Dilimi anlamaz hər naşı sözdən,
zaman çox axıdıb göz yaşı sözdən,
Qoysunlar mənimçün başdaşı sözdən,
məzarım ən rahat odam, -deyərdi.

Çeynəyib tüpürək bu yalan sözü,
öldürüb-dirildən, can alan sözü,
Dilimin ucunda qaralan sözü,
qopar, sən de barı, -atam deyərdi.

## Sən ölmədən əvvəl...

**Məhəmməd Hadiyə**

Sən ölmədən əvvəl
yaşadın ölümün rəngini,
tutdun həyatın ahəngini.
Söz-söz, kəlmə-kəlmə oxşadın
istisini duymadığın
vətən sevgisini,
söykənib vətən adlı məzar daşına.

Həyatın səsləri
fəryad şəklində döyəclədi
arzularını, ümidlərini,
Fəqət, söndürə bilmədi
içindəki əbədiyyət yanğısını.

Yaşamağı asan bilib
yaşaya bilməyən kimsə
ölə-ölə yaşamağın,
yaşaya-yaşaya ölməyin
fərqini anlamaz...

Hər əzabın bir sonu var,
yaşamağın öz yönü var...
Yolumdan azdıra bilmədi məni
başımdakı fikirlər.

Sevgidən başqa
ünvan tanımayan,
nifrətin nə olduğunu bilməyən
xoşbəxtdi, yoxsa?!.

Sən ölmədən əvvəl duydun
şairlərə məzar olduğunu
bu məmləkətin.
Zülmətin içində nur,
ölümdən sonra uğur
qara hərflərlə yazılıb alnımıza.

Unutma,
bir insanın yaşamaq həvəsini
oyuncağa çevirməkdən başqa
bir şey gəlmir əlimizdən.
Və hələ də arxasınca qaçırıq
çata bilmədiklərimizin...

## Adam kişi olanda...

Adam kişi olanda
siqaretin tüstüsünü göyə üfürməz,
içində saxlar...
Dərdi kişi kimi çəkər,
fərq qoymaz böyük-kiçikliyinə...
Kişilər göz yaşı axıtmaz, içində ağlar...

Zamanın kəndiri uzun, ha uzat əlini, çatmaz.
Kişilər getdiyi yolda ölər,
ölər, geriyə qayıtmaz...
Və qucub torpağı bir az, və sevər sevgilisitək.
Başını qoyduğu daşın, üzünü yalayar külək...

Üzündə qəbir sükutu,
ruhunda ölüm iməkləyər addım-addım...
Və açıq olar ürəyinin pəncərəsi,
baxıb keçsin deyə hər adam...

Dolu döyə gözlərimi, əllərimi yağış yuya,
Addım atdığım küçənin divarını qarğış yuya...
İnandığım bu deyilsə...

Ən doğrusunu sən bilirsən, sevgilim!
Bir az Allah,
bir az vətən,
bir az qadın olar adamın içində,
adam kişi olanda...

***

Hər gün bir ümüd ölür bu hücrənin içində,
Hər daşın arxasından bir ruh boylanır mənə.

Gecələr darıxıram,
Lap lülənin içində güllə darıxan kimi.
Sən isə sevinirsən,
sevinirsən məhbuslar türmədən çıxan kimi...

Həyat çox balacadı,
ümid acı, zaman dar...
Qəlbimi verdim sənə, götür nə var yığ apar,
arzuları yığışdır, ürəyimdən çıx, apar...
Mənim xoşbəxt olmağa vaxtım yox,
tələsirəm...

## Burax dərdlərin başını

Üstündəki yuxunu çırp,
çırp dərdlərin yaxasına.
Qapısın aç, gir ömrümün,
gün doğmamış yuxusuna...

Sükutunla sığal çəkmə,
üzündə ağlayan səsə.
Ürəyin dolunca hönkür,
ömür varaqlayan səsə...

Burax dərdlərin başını,
nə çəkərsə, zaman çəkər...
Ölüm bir ev tikib gedər,
həyat içində can çəkər...

## Sevgilər unudulur...

Səhər küləklərinin dodağında sakitcə,
pıçıldayır küçələr...
Sevgililər unudur, sevgilər unudulur...

Bizə görə deyilmiş
ayrılıqdan yaranmış sevginin qulu olmaq.
Bunu düşünməmişdik,
illərlə yığdığımız gözümüzün içində
bir gün lillənib gedər.
Ruhumuza sarılan qorxuya gülə-gülə
başımızın üstündən bir əl yellənib gedər...

Bu da son...
Sözün bitdiyi küçə, sonun başlandığı yol...
Gəl burdaca ayrılaq, ayıraq yolumuzu.
Sən səs gələn tərəfə,
mən it hürən tərəfə...

## Bir az romantika

Tıxananda boğazım bir cansıxan qəhərdən,
Köhnə görüş yerinə
sənsiz dönürəm hərdən...

Köhnə görüş yerimiz...
Əl-ayaq yığışanda qəribsəyir gör necə?!
Kövrək baxışlarıyla,-
Bir az da ümid yağır
Yolumuzu gözləyir elə bil ki hər gecə...

Xəfif külək yalayır göy suların üzünü,
Yarpaqlar da titrəşir
səssizcə,
aram-aram.
Arzular ürəyimdən çıxıb bir-bir özünü,
İntihar həvəsiylə atır suya sakitcə...
Bax, beləcə baxıram,
bir azca darıxıram...

Kimsə yox,
hər yer sakit, qaranlıq çox fikirli,
Günahkar küçələrin ölgün baxışı kirli...

Təkcə pozur arabir
gecənin sükutunu qatarların fit səsi.
Bir də ki, yorğun düşüb
hardasa qərib-qərib,
sahibindən inciyən bir kimsəsiz it səsi...

Tıxananda boğazım bir cansıxan qəhərdən,
Köhnə görüş yerinə
sənsiz dönürəm hərdən...

## Bağışla

Qəfil sənin yuxuna,
gəlsəm, məni bağışla...
Bir gün düşüb dünyadan,
ölsəm, məni bağışla...

Ümidlərin əlində
demə ömür əsirdi,
Dalınca qaçdığımız
arzular kəm-kəsirdi...

Başımdan ahla gedir,
qayıdanda yağışla...
İlahi, bu nə sirdi?
bilsəm, məni bağışla..

ədalət 2019.- 14 may.- S.8.